# Azərbaycanda yeni iş yerlərinin yaradılması daimi prosesə çevrilib

***Prezident İlham Əliyev:** İlin əvvəlindən 60 min yeni iş yeri açılmışdır. Onların bir hissəsi dövlət sektorunda açılmışdır. Biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun*

*Sosial dövlət olan Azərbaycanda yeni iş yerlərinin yaradılması və insanların gəlir imkanlarının artırılması davamlı olaraq diqqət mərkəzində saxlanılır. Son 15 ildə respublika üzrə təxminən 2 milyon yeni iş yerləri açılıb. Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ölkədə işsizliyin səviyyəsini 5 faizədək aşağı salmaq mümkün olub ki, bu da dünyada ən yaxşı göstəricilərdən hesab olunur.*



Respublikamızda yeni iş yerlərinin yaradılması kimi gözəl ənənə 2019-cu ilin birinci yarısında da davam etdirilib. Bir qədər bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədəki çıxışında dövlət başçısı respublikamızda ilin əvvəlindən bəri yeni iş yerlərinin yaradılması istiqamətində önəmli addımların atıldığını nəzərə çatdıraraq vurğulayıb: **"İlin əvvəlindən 60 min yeni iş yeri açılmışdır. Onların bir hissəsi dövlət sektorunda açılmışdır. Biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun. Ona görə ödənişli ictimai iş yerlərinin yaradılması istiqamətində önəmli addımlar atılıb və təxminən 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılıbdır".**

## RESPUBLİKAMIZDA İNSANLARIN MƏŞĞULLUQ İMKANLARININ GENİŞLƏNMƏSİNƏ MÖHKƏM HÜQUQİ VƏ REAL ƏSASLAR YARADILIB

Azərbaycanda insanların məşğulluq imkanlarının genişlənməsinə möhkəm hüquqi və real əsaslar yaradılmasına güclü siyasi iradə göstərilir, dövlət və özəl sektorda yeni iş yerlərinin açılması hərtərəfli şəkildə təşviq edilir. Deyilənlər baxımından respublikamızda 2004-cü ildən bəri Prezident İlham Əliyevin fərmanları ilə təsdiqlənən və regionların sosial-iqtisadi inkişafını hədəfləyən müvafiq Dövlət proqramlarının önəmini xüsusi qeyd edə bilərik. Ölkəmizdə insanların layiqli iş yerləri ilə təmin edilməsi kimi vacib sosial məsələnin həllində regional inkişaf proqramlarının uğurla reallaşdırılması mühüm rol oynayır. Haqqında danışılan Dövlət proqramlarına uyğun olaraq regionların tarazlı şəkildə inkişaf etdirilməsi, bölgələrin də iqtisadi güc amilinə çevrilməsi öz növbəsində çoxlu sayda yeni iş yerlərinin açılması ilə nəticələnib. Məlumdur ki, bir vaxtlar regionlarda yaşayış yeri üzrə iş tapa bilməyən insanlar, ələlxüsus da gənclər paytaxt Bakıya, digər iri şəhərlərə üz tutmaq məcburiyyətində qalırdılar. İndi ölkə üzrə bu mənfi tendensiya, demək olar ki, tam dayanıb. Bir tərəfdən, regionlarda kommunal xidmətlərin səviyyəsinin yüksəlməsi, mədəni mühitin təmin olunması, digər tərəfdən isə, bölgələrdə yaradılan yeni iş yerləri insanları öz doğma yurd-yuvalarına möhkəm tellərlə bağlayır.

Yeni iqtisadi şəraitdə Prezident İlham Əliyevin islahatların ardıcıllığının təmin edilməsi məqsədilə imzaladığı ayrı-ayrı sənədlər respublikamızda insanların məşğulluq imkanlarının genişlənməsinə möhkəm hüquqi əsaslar yaradır. Azərbaycan Prezidentinin 2017-ci il 2 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"nda əmək bazarının inkişafına xidmət edən tədbirlər də yer alıb. Bu tədbirlər sırasına əmək bazarında çevikliyin təmin edilməsi, peşələr üzrə monitorinq aparılması, formal (akademik) təhsilin əmək bazarının tələblərinə uyğunlaşdırılması, peşə təlimi, ixtisasartırma və yenidən hazırlıq vasitəsilə əmək bazarında baş verən sürətli dəyişikliklərin qarşılanması üçün peşə standartlarının hazırlanması prosesinin davam etdirilməsi və digər məsələlər daxildir. Bütövlükdə, sənəddə nəzərdə tutulan tədbirlər ölkəmizdə əmək bazarının bundan sonra da təkmilləşməsinə və genişlənməsinə, insanların layiqli iş yerləri ilə təmin olunmalarına daha optimal şərait yaradılmasına xidmət edir.

Respublikamızda insanların məşğulluq imkanlarının genişləndirilməsi baxımından əmək münasibətlərinin elektron qeydiyyatı sisteminin tətbiqinin önəmini xüsusi qeyd etmək lazımdır. Bu sistem əmək bazarı iştirakçılarının hüquq və mənafelərinin dolğun şəkildə təminatında, əmək bazarının tənzimlənməsi prosesində innovativ yanaşmaları özündə ehtiva edən çox səmərəli vasitədir.

O cümlədən respublikamızda iş yerlərinin yaradılması ilə bağlı yeni hədəflər müəyyənləşdirilib. Prezident İlham Əliyev diqqəti ona yönəldib ki, uğurlu sosial-iqtisadi siyasət sayəsində Azərbaycanın əhalisi getdikcə artır. Ölkədə əhalinin artım tendensiyası ilə əlaqədar yeni iş yerlərinin yaradılması da daimi prosesə çevrilməlidir. Bu xüsusda fikirlərini ifadə edən Prezident İlham Əliyev deyib: **"Bizim əhalimiz artır. Müstəqillik dövründə əhalimiz təxminən 3 milyon nəfər artıb. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini sevinclə qeyd etmişik. Bu, bizim böyük sərvətimizdir, amma digər tərəfdən onu deməyə əsas verir ki, biz daim iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq".**

## YENİ LAYİHƏLƏR HƏYATA KEÇİRİLƏRKƏN İŞ YERLƏRİNİN AÇILMASI ƏSAS MƏQSƏDLƏRDƏN BİRİ KİMİ QARŞIYA QOYULUR

Məlumdur ki, son illərdə ölkəmizdə istər sənaye, istərsə də aqrar sektorda böyükmiqyaslı layihələr həyata keçirilir. O cümlədən belə layihələr reallaşdırılarkən iş yerlərinin açılması əsas məqsədlərdən biri kimi qarşıya qoyulur.

Ölkədə aparılan uğurlu sənayeləşdirmə siyasəti paytaxt Bakıda və bölgələrdə fəal məşğul əhalinin əmək bazarına inteqrasiyasında xüsusi rol oynayır. Yeni yaradılan iri sənaye müəssisələrinin əmək tutumu kifayət qədər genişdir və belə istehsalatlarda daha çox sayda insan iş yerləri ilə təmin olunur. Yuxarıda bəhs olunan müşavirədə iqtisadiyyat naziri Şahin Mustafayev ölkədə yaradılan 9 sənaye parkı və məhəllələri haqqında qısa məlumat verib. Nazirlik rəsmisi vurğulayıb ki, indiyədək sənaye parkları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı faktiki olaraq qoyulub. Yeni layihələrin uğurla icra edilməsinin nəticəsində 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi ixraca yönəldilib. Eyni zamanda, yeni sənaye layihələrinin əmək tutumu da kifayət qədər böyükdür. Belə ki, bu layihələrin reallaşdırılması nəticəsində 11 mindən çox yeni iş yeri açılıb.

Cari ildə istifadəyə verilən "SOCAR karbamid" zavodunda təxminən 500 nəfər daimi işlə təmin ediləcək. Bunun üçün SOCAR təhsil və təqaüd proqramları vasitəsilə ixtisaslı mütəxəssisləri əvvəlcədən hazırlayıb. 2019-cu il fevralın 18-də Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən daha bir nəhəng sənaye müəssisəsi - yüksəksıxlıqlı polietilen zavodu Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Burada da təxminən 500 nəfərin işlə təmin olunması nəzərdə tutulub. Hazırda Balaxanı Sənaye Parkındakı müəssisələrdə 400-ə yaxın işçi çalışır. Yeni layihələrin reallaşdırılması hesabına işçilərin sayının 650-yə çatdırılması nəzərdə tutulur. Mingəçevir Sənaye Parkının ötən il istifadəyə verilən iki müəssisəsində 750 iş yeri açılıb. Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında fəaliyyət göstərən Bakı Gəmiqayırma Zavodunda 2 min nəfər işlə təmin olunub. İndiyədək regionlarda istifadəyə verilən Neftçala və Masallı sənaye məhəllələrində ümumilikdə 700-dək iş yeri yaradılıb. Digər 2 sənaye məhəlləsinin istifadəyə verilməsi ilə sənaye məhəllələrində açılan iş yerlərinin sayı 1800-ə çatacaq.

Cari il may ayının 16-da respublikamızın sənaye xəritəsi daha bir müəssisə ilə zənginləşdi. Bəhs olunan tarixdə Prezident İlham Əliyevin iştirakı ilə Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev zavodun kollektivi ilə görüşdəki çıxışında belə bir müəssisənin istifadəyə verilməsinin yeni iş yerlərinin yaradılması baxımından da əhəmiyyətli olduğunu nəzərə çatdırıb. **"Hər bir yeni müəssisənin açılışı məni sevindirir. Çünki hər bir müəssisənin açılışı yeni iş yerləri deməkdir. Mənə verilən məlumata görə, burada ilkin mərhələdə 30, sonra isə 150 yeni iş yeri yaradılacaq. Beləliklə, burada işsizliklə bağlı problemlər öz həllini tapacaq",** - deyə dövlət başçısı bildirib.

Regionlarda Prezident İlham Əliyevin tapşırığına əsasən aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması, eləcə də aqrar sektorda böyük əmək tutumuna malik olan texniki bitkilərin becərilməsinə diqqətin artırılması da əhalinin məşğulluğunun təmin olunması baxımından böyük əhəmiyyət daşıyır. İqtisadiyyat naziri Şahin Mustafayevin yuxarıda bəhs olunan müşavirədə verdiyi məlumata əsasən, indiyədək ölkə üzrə 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb. Artıq nəticələr var. İyirmi iki aqropark faktiki fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaqdır. Eyni zamanda, bu layihələrin icrası nəticəsində 4 mindən çox yeni iş yeri yaradılacaqdır.

**Mübariz ABDULLAYEV**